# KİTABXANAŞÜNASLIQ

UOT 654.19; 002.2

## AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİNİN VƏZİYYƏTİ

**İ.Z.BAYRAMOVA**
***Bakı Dövlət Universiteti***
***irade8@rambler.ru***

*Məqalədə Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının müasir vəziyyəti, kitabxanaların insanların mədəni–intellektual potensialının artırılmasındakı rolu, onlara göstərilən dövlət qayğısı tədqiq edilmişdir.*

**Açar sözlər:** Kitabxana-informasiya təminatı, informasiya resursları, kadr təminatı

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edildi (1). Dövlət Proqramından da məlum olduğu kimi, Azərbaycan Respublikası 10 iqtisadi rayona bölünür. Bu iqtisadi rayonlar aşağıdakılardır: 1) Abşeron iqtisadi rayonu; 2) Gəncə-Qazax iqtisadi rayonu; 3) Aran iqtisadi rayonu; 4) Quba-Xaçmaz iqtisadi rayonu; 5) Şəki-Zaqatala iqtisadi rayonu; 6) Dağlıq Şirvan iqtisadi rayonu; 7) Lənkəran iqtisadi rayonu; 8) Naxçıvan iqtisadi rayonu; 9) Kəlbəcər-Laçın iqtisadi rayonu; 10) Yuxarı Qarabağ iqtisadi rayonu. Bu iqtisadi rayonlar iqtisadi potensialına, təbii sərvətlərinin miqyasına, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənir. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonları fərqləndirən amillər əsasən aşağıdakılardır: iqtisadi-coğrafi mövqeyi; təbii şəraiti və ehtiyatları; əhalinin məskunlaşması səviyyəsi; regionun sahə və ərazi quruluşu; tarixi inkişaf xüsusiyyətləri;

Azərbaycan Respublikası Prezidenti 14 aprel 2009-cu il tarixində "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" Fərman imzaladı (2). Dövlət Proqramında növbəti beş ildə həlli nəzərdə tutulan tədbirlər içərisində regionlararası mədəni əlaqələrin möhkəmləndirilməsi, milli mədəniyyətin ümumdünya mədəni proseslərinə inteqrasiyası, Azərbaycan Respublikasının mədəni irsinin qorunmasının təmin edilməsi, kitabxana fondlarında müasir komplektləşdirmə mexanizminin yaradılması, kitabxanaların informasiya təminatı və ölkə

üzrə kitabxana-informasiya kompyuter şəbəkəsinin yaradılması və inkişafı və s. kimi məsələlər də var idi.

Azərbaycan Respublikasının ayrı-ayrı regionlarında, kitabxana-informasiya sahəsinin inkişafından, gələcək perspektivlərindən bəhs edərkən, bu sahədə 2008-ci il 6 oktyabr tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nı xüsusi ilə qeyd etmək lazımdır (3, 6-29). Bu sərəncamın yerinə yetirilməsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu il sentyabr ayının 1-dən 10-dək Azərbaycan Respublikasının regionlarında yerləşən kitabxanalarda monitorinq keçirilmişdir. Monitorinqin keçirilməsində əsas məqsəd, əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində onun dünya standartları səviyyəsinə çatdırılması, elektron informasiya daşıyıcılarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, fasiləsiz təhsilin təmin edilməsinə şərait yaradılması istiqamətində olmuşdur (6, 3). Monitorinq zamanı kütləvi, uşaq, gənclər, elmi, elmi-texniki digər ixtisaslaşdırılmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 72,7 faizinin kənd yaşayış məntəqələrində olması məlum olmuşdur. Kitabxanaların növlərinə əsasən bölgüsü aşağıdakı kimidir: Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 46,6%; Təhsil Nazirliyi tabeliyində 50,7%.

Bu kitabxanaların iqtisadi rayonlar üzrə bölgüsündən aydın olur: Bakı şəhəri 8,4%; Aran iqtisadi rayonu 23,4%; Gəncə-Qazax iqtisadi rayonu 14,9%; Abşeron iqtisadi rayonu 2,1%; Quba-Xaçmaz iqtisadi rayonu 8,2%; Şəki-Zaqatala iqtisadi rayonu 9 %; Lənkəran iqtisadi rayonu 11,7 %; Naxçıvan iqtisadi rayonu 5,8%; Dağlıq Şirvan iqtisadi rayonu 4,9%; Kəlbəcər-Laçın iqtisadi rayonu 4,5%; Yuxarı Qarabağ iqtisadi rayonu 7,1% .

Azərbaycan Respublikasında kitabxanaların 111 milyon nüsxədən ibarət olan informasiya resurslarının 80,5%-ni kitablar, 5,4%-ni qəzet və jurnallar, 14,1%-ni isə digər materiallar təşkil edir. Onların 27,2%-i kənd kitabxanalarındadır. Kənd kitabxanalarında informasiya resurslarının 99%-ni kitablar, 0,6%-ni qəzet və jurnallar, 0,4%-ni isə digər materiallar təşkil edir. Kənd kitabxanalarında olan informasiya resurslarının 52,3%-i Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindəki kütləvi kitabxanalardadır. Təhsil Nazirliyi tabeliyində olan ilk peşə-ixtisas təhsil müəssisələrində və ümumtəhsil məktəblərində cəmi 47,2% informasiya resursu var. İnformasiya resurslarının 65,5%-i Azərbaycan, 31,1%-i rus, 2%-ingilis, 1,4%-i digər dillərdədir. Azərbaycan dilində olan ümumi fondun 71,9%-i latın, 28,1%-i kiril əlifbasındadır. Azərbaycan dilinin latın qrafikasında olan fondun xüsusi çəkisi kənd yaşayış məntəqələrində 56,8%-dir. Kənd kitabxanaları 5,8% kompyuterlə təchiz edilmişdir. Kənd yaşayış məntəqələrində yerləşən kitabxanalara edilən müraciətlərin 48,3%-i 18 yaşınadək istifadəçilər tərəfindən edilmiş, 65,2%-i kütləvi, 33,5%-i

ümumtəhsil məktəbləri, 0,1%-i isə ilk peşə-ixtisas müəssisələrində yerləşən kitabxanalara olmuşdur. Kənd yerlərində Mədəniyyət və Turizm Nazirliyi tabeliyində yerləşən kitabxanalar tərəfindən 18 yaşınadək istifadəçilərə 55,7% kitab verilmişdir. Bu kənd musiqi məktəblərində 73,5%, ümumtəhsil məktəblərində isə 85,9 % olmuşdur. Ölkə üzrə kitabxanalarda cəmi 8727 nəfər mütəxəssis var. Onların 4129 nəfəri kənd yaşayış məntəqələrindəki kitabxanalarda işləyir. Kənd kitabxanalarında işləyən mütəxəssislərin sayı aşağıdakı kimidir: ali ixtisas təhsillilər 206 nəfər; ali qeyri-ixtisas təhsillilər 308 nəfər; orta ixtisas təhsillilər 820 nəfər; orta qeyri-ixtisas təhsillilər 635 nəfər; ümumi orta təhsillilər isə 2160 nəfər.

Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti və ondan səmərəli istifadənin perspektivlərinin ümumi mənzərəsi belədir: Abşeron iqtisadi rayonu: Abşeron, Xızı inzibati rayonlarını, Bakı və Sumqayıt şəhərlərini əhatə edir. Əhalinin ümumi sayı 387,9 min nəfər olmaqla ölkə əhalisinin 4,8%-ni təşkil edir. Əhalinin 82,5%-i Bakı şəhərinin, 17,5%-i isə digər inzibati rayonların payına düşür və 89,1%-ni azərbaycanlılar, 5,76%-ni ruslar, qalan 5,2%-ni isə digər milli və etnik qruplar təşkil edir. Abşeron iqtisadi rayonu üzrə 182 kitabxana var. Abşeron və Xızı rayonları üzrə kənd yaşayış məntəqələrində 79,7% kitabxana Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Təhsil Nazirliyi tabeliyində fəaliyyət göstərən kitabxanalar hər iki rayonda birlikdə 120,3% edir. Ayrılıqda isə bu göstərici belədir: Abşeron rayonu üzrə 64,7%, Xızı rayonu üzrə 55,6%. Abşeron iqtisadi rayonu üzrə cəmi 3257798 nüsxə informasiya resursu var ki, onun da 36,4%-i Abşeron rayonu üzrə, 47,8%-i Xızı rayonu üzrə kənd yaşayış məntəqələrində yerləşir (6.S.48). Azərbaycan Respublikasının iqtisadi rayonları içərisində iqtisadi əhəmiyyətinə görə ikinci yerdə Gəncə-Qazax iqtisadi rayonu durur. İqtisadi rayon Ağstafa, Qazax, Tovuz, Daşkəsən, Gədəbəy, Samux, Şəmkir, Göy-Göl, Goranboy rayonlarını, Gəncə və Naftalan kimi şəhərləri əhatə etməklə Azərbaycanın qərbində yerləşir. Əhalinin ümumi sayı 1103,3 min nəfər olmaqla ölkə əhalisinin 13,6%-ni təşkil edir. İqtisadi rayonda əhalinin 53%-i kənd yaşayış məntəqələrində yaşayır. İqtisadi rayonda cəmi 1265 kitabxana var. Onlardan 78,6% kənd yaşayış məntəqələrindədir (6, 23). Kitabxana fondunun informasiya mənbələrinə görə bölgüsü zamanı Gəncə-Qazax iqtisadi rayonunda 11773454 nüsxə informasiya resursunun 46,5%-nin kənd kitabxanalarının payına düşdüyü məlum olur. İqtisadi rayonda 1125 nəfər kitabxana mütəxəssisi var (6, 75). Onların təhsil səviyyələrinə görə bölgüsü aşağıdakı kimidir: ali ixtisas təhsillilər 89 nəfər; ali təhsilli qeyri ixtisas-təhsillilər 129 nəfər; orta-ixtisas təhsillilər 225 nəfər; orta qeyri-ixtisas təhsillilər 173 nəfər; ümumi orta təhsillilər 509 nəfər. İnformasiya resurslarının kənd yaşayış məntəqələrinə görə bölgüsünə əsasən Qazax rayonunda 68,2%, Tovuz rayonunda 67,4%, Ağstafa rayonunda 72,3%, Şəmkir rayonunda 70,4%, Gədəbəy rayonunda 78,9%, Daşkəsən rayonunda 61,4%, Goranboy rayonunda 70,8%, Göygöl rayonunda 58%, Samux rayonuda 60,8% informasi-

ya mənbələri var (6, 57) Azərbaycan Respublikasının iqtisadi rayonlarından biri də Şəki-Zaqatala iqtisadi rayonudur. Bu iqtisadi rayon Azərbaycanın şimal-qərbində yerləşir. İqtisadi rayonun ərazisinin ümumi sahəsi 8,96 min kv. km olmaqla, ölkə ərazisinin 10,3%-ni təşkil edir. İqtisadi rayonun əhalisinin ümumi sayı 531,9 min nəfər olmaqla ölkə əhalisinin 6,5%-ni təşkil edir. Şəki-Zaqatala iqtisadi rayonunda cəmi 764 kitabxana resursu var. Bu kitabxanaların 83,6%-i kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. İqtisadi regionun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala rayonları daxildir. Kənd yaşayış məntəqələrində yerləşən kitabxanaların bölgüsü aşağıdakı kimidir: Balakən rayonu 88%; Qax rayonu 88,7%; Qəbələ rayonu 90,3%; Oğuz rayonu 88,2%; Şəki rayonu 71%; Zaqatala rayonu 85,7%; Ümumi hesablamalara görə, Şəki-Zaqatala iqtisadi regionunda kənd yaşayış məntəqələrindəki kitabxanaların 53,5%-i Mədəniyyət və Turizm Nazirliyinin, 46%-i isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Kitabxana fondunun bölgüsünə görə, ümumilikdə iqtisadi rayonda kitabxana-informasiya resurslarının 5515558 nüsxə olması məlumdur. İnformasiya resurslarının 62,7%-i kənd kitabxanalarının payına düşür. Regionun kənd kitabxanalarında cəmi 10 kompyuter var. İqtisadi rayonda olan 640 nəfər kitabxana mütəxəssisindən 535 nəfəri kənd kitabxanalarında çalışır.

Azərbaycan Respublikasının iqtisadi rayonları içərisində önəmli yerlərdən birini də Lənkəran iqtisadi rayonu tutur. Azərbaycan Respublikasının Lənkəran iqtisadi rayonu Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarının ərazisini əhatə etməklə, Azərbaycanın cənub-şərqində yerləşir. İqtisadi rayonun ümumi sahəsi 6,08 min kv.km olmaqla, ölkə ərazisinin 7%-ni əhatə edir. Əhalinin ümumi sayı 753,7 min nəfər olmaqla ölkə əhalisinin 9,3%-ni təşkil edir. Ölkə kitabxana resursunun 11,7%-i bu iqtisadi rayonun payına düşür. Kitabxanaların sayına görə Cəlilabad (211), Lənkəran (191) və Masallı rayonları (174) xüsusilə fərqlənir. Ümumiyyətlə, iqtisadi rayonunun kitabxana-informasiya resursları ölkə informasiya resurslarının 5,9%-ni təşkil edir. Belə ki, regionun ümumi kitabxana resursları 6578166 nüsxə çap vahidi ilə ölçülür. Lənkəran iqtisadi rayonununda ümumi əhalinin 86%-i azərbaycanlılar, 13,5%-i talışlar, 0,3%-i ruslar, 0,1%-i avarlar, 0,1%-i isə digər millətlərdir. (8, 331). İqtisadi rayonda cəmi 994 kitabxana resursu var. Onların 86,4%-i kənd yaşayış məntəqələrində yerləşir. Kənd kitabxanalarının 49,5%-i Mədəniyyət və Turizm Nazirliyinin, 50,2%-i isə Təhsil Nazirliyinin tabeliyindədir (6, 23-41). Lənkəran iqtisadi rayonunda, kənd kitabxanalarında cəmi 15 kompyuter var. İqtisadi rayonda ümumi informasiya resurslarının 62,9%-i kənd kitabxanalarında yerləşir. Onların 99,6%-ni kitablar təşkil edir. İqtisadi rayonun kitabxanalarında 734 nəfər kitabxana mütəxəssisi var. Onlardan 611 nəfəri kənd kitabxanalarında çalışır. Bu mütəxəssislərin təhsil səviyyəsi aşağıdakı kimidir: ali ixtisas təhsillilər 37 nəfər; ali qeyri-ixtisas təhsillilər 29 nəfər; orta-ixtisas təhsillilər 107 nəfər; orta qeyri-ixtisas təhsillilər 110 nəfər; ümumi orta təhsillilər 328 nəfər.

Azərbaycan Respublikasının regionları içərisində Quba-Xaçmaz iqtisadi rayonu da xususi yer tutur. İqtisadi rayon Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə edir. İqtisadi rayonun ümumi sahəsi 7,66 min kv.km olmaqla, ölkə ərazisinin 8,8%-ni təşkil edir. Region əhalisinin ümumi sayı 453,1 min nəfər olmaqla, ölkə əhalisinin 5,6%-ni təşkil edir. Əhalinin 32%-i şəhərlərdə, 68%-i kəndlərdə yaşayır. İqtisadi rayonda cəmi 698 kitabxana resursu var. Onların 593-ü kənd yaşayış məntəqələrində yerləşir. Kənd kitabxanalarının 334-ü Mədəniyyət və Turizm Nazirliyinin, 259-u isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir (6, 26-43). Quba-Xaçmaz iqtisadi rayonunda kitabxanalarda 4782603 nüsxə informasiya resursu var. Onun 3190555 nüsxəsi kənd yaşayış məntəqələrindədir. Kənd kitabxanalarındakı informasiya resursunun 99,4%-i kitablardır. İqtisadi rayonun kənd kitabxanalarında cəmi 7 kompyuter var. Ümumi yekuna görə, kitabxanalaların cəmi 8,2%-i kommunikasiya texnologiyaları ilə təmin olunmuşdur. İqtisadi rayonun 569 nəfər kitabxana mütəxəssisindən 479 nəfəri kənd kitabxanalarında çalışır.

Azərbaycan Respublikasının Aran iqtisadi rayonu Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonlarını və Şirvan, Mingəçevir, Yevlax şəhərlərini əhatə edir. İqtisadi rayonun ümumi sahəsi 21,43 min kv. km olmaqla ölkə ərazisinin 24,7%-ni əhatə edir. Aran iqtisadi rayonunda 1988 kitabxana resursu var. Onlardan 1571-i kənd yaşayış məntəqələrindədir. Bu kitabxanalardan 875-i Mədəniyyət və Turizm Nazirliyinin, 688-i isə Təhsil Nazirliyinin tabeliyindədir. Ümumiyyətlə, iqtisadi rayonun kənd yaşayış məntəqələrində 7842550 nüsxə informasiya resursu var ki, onun 98,9%-i kitablardır (6, 55-56). İqtisadi rayonun kənd kitabxanalarında 25 kompyuter var. Rayonda cəmi 1932 nəfər kitabxana mütəxəssisi var və onların təhsil səviyyəsi belədir: ali-ixtisas təhsillilər 133 nəfər; ali-qeyri-ixtisas təhsillilər 132 nəfər; orta ixtisas təhsillilər 437 nəfər; orta-qeyri-ixtisas təhsillilər 306 nəfər; ümumi orta təhsillilər 924 nəfər. Mütəxəssislərin 1558 nəfəri kənd yaşayış məntəqələrindəki kitabxanalarda çalışır (6, 75-83).

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları işğal altındadır. Bu iqtisadi rayonlarda, kitabxanalar, məktəblər, muzeylər və bir çox maddi və mədəniyyət abidələri dağıdılmış, məhv edilmişdir. Artıq uzun illərdir ki, Dağlıq Qarabağda, Kəlbəcər-Laçında və digər işğal olunmuş ərazilərdə yaşayan xalqımız məcburi şəkildə doğma yurd-yuvasından didərgin düşərək, respublikamızın müxtəlif regionlarında yaşayırlar. Dağlıq Qarabağ iqtisadi rayonu Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonlarını və Xankəndi şəhərini əhatə edir. İqtisadi rayonun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının və Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam, Füzuli və Tərtər rayonlarının əraziləri isə qismən erməni işğalı altındadır. Bu səbəbdən Dövlət Proqramı çərçivəsində bu iqtisadi rayon üzrə Ağdam və Füzuli rayonlarının işğal olunmamış ərazilərinin və Tərtər rayonunun inkişafına dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Hazırda 1482 kv.km ərazini əhatə edən bu üç rayonda 211,8 min əhali yaşayır. Dağlıq Qarabağ iqtisadi rayonunda cəmi 608 kitabxana resursu var. Bu ölkə üzrə göstəricilərin 7,1%-i deməkdir. Kitabxanaların 36,2%-i Mədəniyyət və Turizm Nazirliyinin, 59,1%-i isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Bu kitabxanaların 442-i (72,7%) kənd yaşayış məntəqələrində yerləşir. Ümumi yekuna görə iqtisadi rayonun kənd kitabxanaları ölkə üzrə göstəricilərin 2,3%-ni təşkil edir. İqtisadi rayonun kənd yaşayış məntəqələrində Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 197, Təhsil Nazirliyinin tabeliyində 236 kitabxana fəaliyyət göstərir. Dağlıq Qarabağ iqtisadi rayonunda 2072714 nüsxə informasiya resursundan 1264257 nüsxəsi kənd kitabxanalarındadır. 98,2% olmaqla, fondun əsasını kitablar təşkil edir (6, 23-56). Kənd kitabxanalarında cəmi 2 kompyuter var. İqtisadi rayonda 560 nəfər kitabxana mütəxəssisi var. Onların ixtisas səviyyəsinə görə bölgüsü belədir: ali-ixtisas təhsillilər 33 nəfər; ali-qeyri-ixtisas təhsillilər 56 nəfər; orta ixtisas təhsillilər 147 nəfər; orta-qeyri-ixtisas təhsillilər 94 nəfər; ümumi orta təhsillilər 230 nəfər. İqtisadi rayon üzrə mütəxəssislərin yalnız 32,2%-i kitabxana üzrə ali və orta-ixtisas təhsillidir. Kənd kitabxanalarında çalışan 406 nəfər mütəxəssisdən 33,3%-nin ali və orta-ixtisas təhsilli, 20,4%-nin ali və orta qeyri-ixtisas təhsilli, 46,3%-nin isə ümumi orta təhsilli olması məlum olur.

Kəlbəcər-Laçın iqtisadi regionunda cəmi 381 kitabxana resursu var. Bu kitabxanaların 289-u kənd yaşayış məntəqələrindədir. 116 kitabxana Mədəniyyət və Turizm Nazirliyinin, 173 kitabxana isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. İqtisadi rayonda cəmi 1055843 nüsxə informasiya resursu var. Fondun 446165 nüsxəsi kənd kitabxanalarında yerləşir ki, onun da 444976 nüsxəsini kitablar təşkil edir (6, 44-66). Regiondakı kitabxanalarda cəmi 369 nəfər mütəxəssis çalışır. Mütəxəssislərdən 277 nəfəri kənd kitabxanalarında çalışır ki, onlardan 29%-i ali və orta-ixtisas təhsilli, 34,4%-i ali və orta qeyri-ixtisas təhsilli, 36,6%-i ümumi orta təhsillidir.

Azərbaycan Respublikasının Dağlıq Şirvan iqtisadi rayonunun ərazisi 6,06 min kv.km olub, ölkə ərazisinin 6,9%-ni təşkil edir. Bu iqtisadi rayona Şamaxı, İsmayıllı, Ağsu və Qobustan inzibati rayonları daxildir. İqtisadi rayon ölkə kitabxana resurslarının 4,9%-ni təşkil edir. İqtisadi rayonda 419 kitabxana resursu fəaliyyət göstərir. Bunlardan 366-ı və ya 87,4%-i kənd yaşayış mərkəzlərində yerləşmişdir ki, bu da ölkə kitabxana resurslarının 5,9%-ni təşkil edir. İqtisadi rayon üzrə kitabxanalar inzibati rayonlar baxımından aşağıdakı kimi yerləşmişdir: İsmayıllı rayonu 126 kitabxana; Şamaxı rayonu 122 kitabxana; Ağsu rayonu 119 kitabxana; Qobustan rayonu 52 kitabxana. Bəhs edilən regionda kitabxana resursları kənd yaşayış məntəqələri üzrə bu şəkildə yerləşmişdir: Ağsu rayonunda 91,6%, İsmayıllı rayonunda 88,9%, Qobustan rayonunda 96,5, Şamaxı rayonunda isə 82%. İqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların 43,7%-i Mədəniyyət və Turizm Nazirliyinin, 53,4%-i Təhsil Nazirliyinin payına düşür. Dağlıq-Şirvan iqtisadi rayonunun informasiya resursları ölkə kitabxana-informasiya resurslarının 2,3%-ni təşkil edir və

2,6 milyon nüsxəyə yaxındır. İnformasiya resursunun 69,1%-i kənd yaşayış məntəqələrində toplanmışdır. İqtisadi rayonda 292 kitabxana mütəxəssisi fəaliyyət göstərir. Onlardan 2,7%-i ali ixtisas təhsilli, 5,1%-i ali qeyri-ixtisas təhsilli, 19,9%-i orta-ixtisas təhsilli, 18,2%-i orta qeyri-ixtisas təhsilli, 54,1%-i isə ümumi orta təhsilli kadrlardan ibarətdir (6, 75-83).

Azərbaycan Respublikasının Naxçıvan iqtisadi rayonunun ərazisi 5,5 min kv.km-dir. İnzibati cəhətdən iqtisadi rayonun tərkibinə Naxçıvan, Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək və Kəngərli rayonları daxildir. 2009-cu ilin statistik məlumatına əsasən iqtisadi rayonun əhalisi 397,4 min (4,6%) olmuşdur. Naxçıvan iqtisadi rayonunda əhalinin 73%-i kənd yaşayış məntəqələrində yaşayır. Hazırda iqtisadi rayonda 491 kitabxana fəaliyyət göstərir və onların 397-i (80,9%) kənd yaşayış məntəqələrində yerləşir. İqtisadi rayonda olan kitabxanaların 47,7%-i Mədəniyyət və Turizm Nazirliyinin, 46,4%-i isə Təhsil Nazirliyinin tabeliyindədir. Bu kitabxanalar ölkə kitabxana resurslarının 5,8%-ni təşkil edir. Kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resursların 49,8%-i kənd yaşayış məntəqələrində yerləşir ki, bu da ölkə informasiya resurslarının 7,7%-i deməkdir. İqtisadi rayon üzrə kitabxana mütəxxəsislərinin 33%-i ali ixtisas təhsilli, 10,1%-i orta-ixtisas təhsilli, 10,4%-i ali qeyri-ixtisas təhsilli, 9,8%-i isə orta qeyri-ixtisaslı kadrlardır. Bu da ümumilikdə, 20,2 %-təşkil edir. Kitabxanaçı-biblioqraf kadrlarının 614 nəfəri (88,9%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərən kitabxana resurslarını idarə edir.

Kitabxana-biblioqrafiya işinin inkişafı və bu sahənin daha da yaxşılaşdırılmasına dövlətimiz tərəfindən daim qayğı göstərilmişdir. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 20 aprel 2007-ci il sərəncamında deyildiyi kimi "Bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır" (4).

"Kitabxana işi haqqında" Azərbaycan Republikasının Qanununda kitabxanaların elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut olması öz əksini tapmışdır (7, 3-16).

Azərbaycan Respublikasının ayrı-ayrı regionlarında fəaliyyət göstərən MKS-lər, onların informasiya resursları, oxucularının və filiallarının sayı, kadr təminatı regionların kitabxana- informasiya təminatı sistemində mühüm yer tutur. Respublikamızda kitabxanaların mərkəzləşdirilməsi işinə əsasən 70-ci illərdən sonra başlanıldı. MKS-lər struktur cəhətdən bütöv, vahid maddi-texniki və təşkilati baza, ümumi fond və texnologiyaya əsaslanan kitabxana birliyi kimi formalaşmağa başladı. Bu mərkəzləşdirmə, kütləvi kitabxanaların bir-biri ilə sadəcə birləşdirilməsi deyil, həmçinin onların keyfiyyətcə yeni kitabxana-

informasiya şəbəkələrinin qurulması demək idi. Respublikamızın müxtəlif iqtisadi rayonlarında fəaliyyət göstərən MKS-lər və onların filiallarından bəhs edərkən, qeyd etməliyik ki, 2009-cu ilin əvvəllərinə qədər respublikamızdakı bütün kütləvi kitabxanaların sayı 4029 olmuşdur (5, 232-235).

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda qeyd edilir ki, ötən əsrin 90-ci illərinin əvvəllərində ölkədə baş verən hadisələr kitabxanaların da fəaliyyətinə mənfi təsir göstərmiş, kitab nəşri və kitab təhcizatı sistemi tamamilə iflic vəziyyətinə düşmüş, onların maddi-texniki bazasının olduqca zəifləməsinə gətirib çıxarmışdır. Bütün bunlar kitabxana sahəsinin tənəzzülünə səbəb olmuşdur. Nəticədə kitabxanalar real və potensial oxucularını itirmiş, xeyli sayda kitabxanalar bağlanılmış, əksəriyyəti oxucu tələbatını ödəyə bilməmiş, mövcud ştat vahidləri ixtisar edilmişdir. Bunun əsas səbəbi, Ermənistan silahlı qüvvələri tərəfindən respublika ərazisinin 20 faizinin işğal olunması, hazırda bu torpaqların hələ də erməni tapdağı altında olması və bunun nəticəsində 9 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 927 kitabxananın və onların 4 milyondan artıq kitab fondunun məhv edilməsi, kitabxanaların yeni nəşrləri almaq üçün vəsaitlə təmin edilməməsi, habelə kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və mənəvi cəhətdən köhnəlmiş kitabların çıxarılması olmuşdur (3, 6-29).

Dövlət Proqramında Kitabxanaların müxtəlif sahələrə aid yeni nəşrlərlə təmin edilməsinə, fondlarının mühafizəsinə, binalarının əsaslı təmirinə, avadanlıqla təmin edilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına ciddi ehtiyac olduğu nəzərə çatdırılmışdır. Bu problemləri həll etmək üçün, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamları xüsusi əhəmiyyət daşıyır. Belə ki, kitabxanalarda olan ədəbiyyatın kiril qrafikasından latın qrafikasına çevrilərək, yenidən nəşr edilib kitabxanalara pulsuz paylanması, kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və köhnəlmiş ədəbiyyatların çıxarılması da bu sərəncamın gözlənilən nəticələri arasındadır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). "Azərbaycan" qəz., Bakı, 2004, 11 fevral.
2. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2009,184 s.
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal, 2008, № 2, s.6-29.
4. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı."Azərbaycan" qəz., Bakı, 2007, 21 aprel.
5. Azərbaycanın statistik göstəriciləri 2009. Bakı: Səda, 2009, 772 s.

6. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə:Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.Bakı, 2009, 88 s.
7. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal,1999, №1, s.3-16.
8. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı: Elm,2007, 465 s.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ РАЗМЕЩЕНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**И.З.БАЙРАМОВА**

### РЕЗЮМЕ

В статье анализируются современное состояние размещения библиотечно-информационных ресурсов в регионах Азербайджанской Республики, а также проявление заботы государства в этой области, о роли библиотек в повышении интеллектуально-культурного развития уровня населения.

**Ключевые слова:** библиотечно-информационное обеспечение, информационные ресурсы, кадровое обеспечение

## MODERN STATE OF LIBRARY- INFORMATION RESOURSES IN THE REGIONS OF THE AZERBAIJAN REPUBLIC

**I.Z.BAYRAMOVA**

### SUMMARY

The article analyzes modern state of library-information resources in the regions of the Azerbaijan Republic. The role of libraries in intellectual-cultural development of the regions as well as the state care to the specified sphere are elucidated in the article.

**Key words:** Bibliographic-information provision, information resourses, current status